*Azərbaycan Elm Fondunun Müşahidə Şurasının "_24_"__fevral_ 2023-cü il tarixli __04_ nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

**Elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə müsabiqələrin keçirilməsi**

# QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Elm Fondu (bundan sonra - Fond) tərəfindən Azərbaycan Respublikasında təbiət, dəqiq, texniki, humanitar və ictimai elmlər sahəsində dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən fundamental, tətbiqi və axtarış-innovasiya xarakterli elmi-tədqiqat proqramları və layihələrini və digər elmi tədbirləri (bundan sonra - layihələr) dəstəkləmək, aktual və müasir elmi problemlərin həlli ilə məşğul olan fiziki şəxslərin, bir elmi mövzu (problem) ətrafında müvəqqəti yaradılmış yaradıcı kollektivlərin, akademik və təhsil sistemlərində fəaliyyət göstərən elmi və digər qurumların (dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının və s.) elmi fəaliyyətini stimullaşdırmaq və onlara əlavə yaradıcılıq imkanı yaratmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 15 oktyabr tarixli 1855 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Elm Fondunun Nizamnaməsi"nin (bundan sonra - Nizamnamə) və digər müvafiq normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla qrantların verilməsi üzrə müsabiqələrin (bundan sonra - müsabiqələr) keçirilməsi qaydalarını tənzimləyir.

1.2. Müsabiqələr hər il vaxtaşırı prioritet elmi istiqamətlərə uyğun olaraq aşağıdakı elm sahələri üzrə təşkil edilir:

1.2.1. fizika-riyaziyyat və texnika elmləri;

1.2.2. Yer haqqında elmlər;

1.2.3. biologiya, tibb və aqrar elmləri;

1.2.4. kimya elmləri;

1.2.5. humanitar və ictimai elmlər.

1.3. Müsabiqədə iştirak etmək üçün təqdim olunan ərizə (bundan sonra - ərizə) və digər sənədlər (formalar) tərtib edilərkən bu Qaydaların 1.2-ci bəndində qeyd olunmuş elm sahələri üzrə Fond tərəfindən təsdiq edilmiş elmi-tədqiqat istiqamətlərinin ümumi təsnifatına istinad olunur.

1.4. Müsabiqələr aşağıdakı istiqamətlərdə keçirilir:

1.4.1. fundamental və tətbiqi xarakterli elmi-tədqiqat layihələrinin kiçik, orta və böyük həcmli qrant vasitəsilə maliyyələşdirilməsi (o cümlədən, ölkə daxilində müştərək müsabiqələr çərçivəsində həyata keçirilən layihələrin, həmçinin digər ölkələrin alimləri, elmi qurumları ilə əməkdaşlıq çərçivəsində yerinə yetirilən müştərək layihələrin ikitərəfli və çoxtərəfli olmaqla maliyyə bölgüsü sazişləri əsasında qismən (müəyyən hissəsinin) maliyyələşdirilməsi);

1.4.2. əhəmiyyətli və qısa zamanda dönüş yarada biləcək elmi-texniki nəticələr alınması məqsədilə elmin ayrıca götürülmüş sahəsinin (sahələrinin) inkişafına böyük həcmli qrantın verilməsi (pilot layihəsi şəklində);

1.4.3. cəmiyyətin sosial-mənəvi inkişafına xidmət edən, humanitar və ictimai elmlər sahəsində yerinə yetirilən elmi-tədqiqat işləri üzrə layihələrin məqsədli qrant vasitəsilə maliyyələşdirilməsi (xüsusi hallarda, mərkəzi icra hakimiyyəti orqanları və digər qurumların onlar üçün prioritet sayılan elmi-tədqiqat problemləri üzrə layihələrinin Fondla müştərək şəkildə məqsədli maliyyələşdirilməsi);

1.4.4. axtarış - innovasiya yönlü layihələrin qrant vasitəsilə maliyyələşdirilməsi;

1.4.5. aşağıdakı xüsusi layihələrə qrantın verilməsi yolu ilə maliyyə dəstəyinin göstərilməsi:

1.4.5.1. elmi-tədqiqatların müasir tələblərə cavab verən maddi-texniki təminatı;

1.4.5.2. ölkənin sosial-mənəvi, elmi-texniki və iqtisadi inkişafı üçün xüsusi əhəmiyyət kəsb edən respublika, regional və beynəlxalq səviyyəli konfrans, simpozium, seminar və başqa elmi tədbirlərin Azərbaycan Respublikasında təşkili və keçirilməsi;

1.4.5.3. Azərbaycan alimlərinin və mütəxəssislərinin xaricdə keçirilən nüfuzlu regional və beynəlxalq elmi tədbirlərdə (plenar, xüsusi dəvətli və dəvətli şifahi məruzəçilər qismində) iştirakının qismən və ya tam şəkildə maliyyələşdirilməklə təmin edilməsi;

1.4.5.4. Azərbaycanda elmin inkişafı üçün mühüm əhəmiyyət kəsb edən elmi əsərlərin (monoqrafiya, atlasların, sifarişli əsasda yazılmış elmi və analitik icmalların, həmçinin elmin tədrisi ilə bağlı və elmi-kütləvi xarakterli əsərlərin) nəşrinin dəstəklənməsi;

1.4.5.5 çeviklik tələb edən xüsusi elmi ekspedisiya və çöl işlərinin təşkili;

1.4.5.6. xüsusilə vacib hallarda (yeni metodun və cihazın öyrənilməsi və s.), qısamüddətli (bir ayadək) təcrübəkeçmə proqramlarının həyata keçirilməsi;

1.4.5.7. Azərbaycanda elmin inkişafına, tədrisinə və təbliğinə yönəldilmiş digər tədbirlərin layihələr şəklində dəstəklənməsi.

## 2. Müsabiqənin keçirilmə prinsipləri

2.1. Bu Qaydaların 1.4-cü bəndində nəzərdə tutulmuş müsabiqələr üzrə layihələrin dəstəklənməsi və maliyyələşdirilməsi Fond tərəfindən Azərbaycan Respublikasının vətəndaşı olan alimlərin, mütəxəssislərin və digər fiziki şəxslərin yaşından, elmi dərəcəsi və elmi adından, işlədiyi qurum və tutduğu vəzifədən, habelə qurumların tabeliyindən və təşkilati- hüquqi formasından asılı olmayaraq, şəffaflıq, bərabər şərait və elmi meyarların üstünlüyü prinsiplərinə riayət olunmaqla həyata keçirilir.

2.2. Müsabiqədə alimlər, mütəxəssislər və digər fiziki şəxslər (fərdi qaydada), qurumlar və elmi yaradıcı kollektivlər (alim və mütəxəssislərin və ya qurumların iştirakı ilə müvəqqəti olaraq təşkil olunmuş) iştirak edə bilərlər.

2.3. Müsabiqəyə təqdim edilən layihə həmin layihə üzrə rəhbərlə təmsil olunmalıdır (fiziki şəxs tərəfindən təqdim edilən layihə üzrə həmin şəxs layihə rəhbəri qismində çıxış edir). Layihə rəhbəri Azərbaycan Respublikasının vətəndaşı olmalı və son beş ildə Azərbaycan Respublikasının ərazisində daimi yaşamalıdır.

2.4. Müsabiqədə, bir qayda olaraq, Azərbaycan Respublikasının elmi-texniki, sosial-mənəvi və iqtisadi inkişafının aktual və prioritet problemlərinin həllinə istiqamətləndirilmiş,

novator ideyaların reallaşdırılmasına, yeni elm sahələrinin inkişafına, eləcə də tətbiqi xarakter daşıyan və gözlənilən nəticələrinin iqtisadiyyatda tətbiqi perspektivinə malik olan və beynəlxalq səviyyədə ölkənin nüfuzunu artıra biləcək layihələrə üstünlük verilir.

2.5. Layihələrə baxılarkən aşağıdakılar da xüsusilə qiymətləndirilir:

2.5.1. layihələrin məqsəd və vəzifələrinin aydınlığı, mövzusunun aktuallığı və novatorluğu və ölkədə elmin prioritet istiqamətlərinə və dünya elminin müasir inkişaf tendensiyalarına uyğun olması;

2.5.2. layihənin dəqiq ifadə edilmiş və əsaslandırılmış ideyasının (hipotezinin) olması, onun orijinallıq dərəcəsi;

2.5.3. gözlənilən nəticələrin elmi əhəmiyyəti və onlardan, mümkün olduğu təqdirdə, praktiki məqsədlərlə istifadə və iqtisadiyyatda tətbiq imkanları;

2.5.4. dövlətin elmi-texniki və sosial-iqtisadi inkişaf proqramlarının yerinə yetirilməsinə potensial töhfəsi;

2.5.5. ölkənin milli təhlükəsizliyinin və müdafiə qüdrətinin gücləndirilməsinə istiqamətləndirilmiş tədqiqatların olması;

2.5.6. ixtiranın mövcudluğu, patent alınmasının ehtimal dərəcəsi və ixtiranın istehsalatda tətbiqinin mümkünlüyü;

2.5.7. Azərbaycan Respublikasının da iştirak etdiyi beynəlxalq və regional layihələrin yerinə yetirilməsində mümkün effektiv rolu;

2.5.8. cəmiyyətdə baş verən sosial-iqtisadi və mədəni-mənəvi proseslərin öyrənilməsində və proqnozlaşdırılmasında əhəmiyyəti;

2.5.9. elmi-tədqiqat proqramının layihənin məqsəd və vəzifələrinə uyğunluğu, həmçinin gözlənilən nəticələrin elmi tutumu;

2.5.10. layihə rəhbərinin və icraçıların elmi kvalifikasiyası (müsabiqənin növündən asılı olaraq);

2.5.11. layihənin yerinə yetirilə bilməsi üçün tələb olunan müvafiq maddi- texniki bazanın mövcudluğu (müsabiqənin növündən asılı olaraq);

2.5.12. layihə rəhbərinin və ya icraçının (icraçıların) əvvəlki yerinə yetirilmiş qrant layihələrində uğurlu iştirakı və bu layihələr çərçivəsində alınmış nəticələrin elmi-praktiki əhəmiyyəti;

2.5.13. layihə rəhbərinin və icraçıların layihənin elmi istiqaməti üzrə elmi ictimaiyyət tərəfindən qəbul olunmuş nüfuzlu jurnallarda (xüsusi halda, "Science Citation İndex"ə daxil olan və "İmpact Factor"lu jurnallarda), dövri nəşrlərdə və tanınmış nəşriyyatlarda (Springer, Elsevier, Pleiades Publishing and MAIK və başqaları) çap olunmuş elmi işlərinin olması;

2.5.14. qrant layihəsi üçün tələb olunan maliyyələşdirilmənin məbləğinin məntiqli və reallığa uyğun olaraq ciddi şəkildə əsaslandırılması;

2.5.15. akademik və təhsil sistemində kitab və dərsliklərin və başqa elmi- texniki nəşr materiallarının, elmin təbliği və tədrisi üzrə vasitələrin hazırlanmasında, elektron elmi kitabxanaların yaradılmasında rolu;

2.5.16. digər qiymətləndirmə meyarları.

2.6. Digər ölkələrin tanınmış alimlərinin və mütəxəssislərinin, regional və beynəlxalq elmi təşkilatların nümayəndələrinin iştirak etdiyi müştərək layihələrə, eləcə də yerli gənc alimlərin və alim qadınların icraçı və ya layihə rəhbəri qismində iştirak etdiyi layihələrə əlavə üstünlüklər verilir.

2.7. Müxtəlif elm sahələrinin qovşağında yerləşən layihələrin müsabiqədə iştirakına yol verilir.

2.8. Hər növbəti müsabiqə elanı üçün müsabiqələrin növləri, prioritet elmi istiqamətlər, elm sahələrini əhatə edən elmi istiqamətlərin ümumi təsnifatı, müsabiqələrin keçirilmə müddəti, həmçinin layihələrin maliyyələşdirilmə prinsipi və mexanizmləri Fondun icraçı orqanı (icraçı direksiyası) tərəfindən Fondun Müşahidə Şurası ilə razılaşdırılmaqla müəyyən edilir. Kiçik, orta və böyük həcmli qrantlar üzrə maliyyələşdirilmənin həcmi isə konkret olaraq hər bir müsabiqə üçün müəyyənləşdirilir. Məqsədli, xüsusi və pilot layihələri müsabiqələri də hər növbəti müsabiqə elanı üçün konkret olaraq müəyyənləşdirilir.

2.9. Müsabiqə haqqında elanlar kütləvi və elektron informasiya vasitələrindən (Fondun internet saytı və digər müvafiq internet resursları, informasiya agentlikləri, televiziya, radio, mətbu nəşrlər və s.) istifadə edilməklə, həmçinin aidiyyəti üzrə bilavasitə məktub və faks göndərilmə və müvafiq plakatların yayılması yolları ilə verilir.

2.10. Bir qayda olaraq, hər bir şəxs, qurum və ya müvəqqəti yaradıcı kollektiv keçirilən hər müsabiqənin yalnız bir növündə iştirak edə bilər (şəxs - icraçı və ya rəhbər qismində). Xüsusi və ciddi əsaslandırılmış hallarda eyni şəxs hər cari müsabiqə elanı üzrə iki layihədən birində rəhbər qismində (ölkədaxili layihədə), digərində iştirakçı statusunda (digər ölkələrin alimləri ilə müştərək layihədə) iştirak edə bilər.

2.11. Bu Qaydaların 2.10-cu bəndinin ikinci cümləsinə uyğun olaraq hələ də yerinə yetirilməkdə olan iki layihədə iştirak edən alimin Fondu yazılı şəkildə xəbərdar etmədən yeni (növbəti) müsabiqəyə qatılması, onun yerinə yetirilməkdə olan və Fond tərəfindən maliyyələşdirilən layihələrdə iştirakının dayandırılmasına səbəb ola bilər.

2.12. Layihənin icra müddəti, bir qayda olaraq, bir ilə qədər müəyyən edilir. Xüsusi hallarda həmin müddət iki ildən üç ilə qədər müəyyən edilə bilər. Bir ildən artıq müddətli layihələr adətən fundamental və tətbiqi xarakterli elmi-tədqiqat işlərinə şamil edilir.

2.13. Müsabiqə prosesində layihə rəhbəri və icraçı (icraçılar) təqdim olunan mövzu üzrə digər mənbədən qrant və ya digər vəsait alarlarsa, onlar bu haqda dərhal Fondu yazılışəkildə məlumatlandırmalıdırlar. Bu halda həmin layihənin müsabiqədə iştirakı barədə müvafiq qərar Fond tərəfindən qəbul edilir.

2.14. Fond tərəfindən keçirilən əvvəlki müsabiqələrdə iştirak etmiş və maliyyələşdirilmiş eyni mövzu üzrə layihələr təkrar müsabiqəyə buraxılmır.

2.15. Fond ərizələrdə, bu Qaydalara uyğun olaraq ərizəyə əlavə olunun sənədlər və digərmüşayiətedici materiallarda onların elmi məzmunu və layihələrin texniki təsviri ilə bağlı dəyişikliklər üzrə tövsiyələrə yol vermir. Yalnız maliyyələşdirilməyə qəbul edilmiş (müsabiqədən uğurla keçmiş) layihələr üzrə onların adının və ayrı-ayrı müddəalarının dəqiqləşdirilməsi üzrə təkliflər verilə bilər və bu təkliflər layihə rəhbəri tərəfindən yalnız layihənin icrası haqqında müqavilənin hazırlanması mərhələsində nəzərə alına bilər.

2.16. Müsabiqənin nəticələri haqqında məlumat layihə rəhbərinə müsabiqə bitdikdən sonra Fondun icraçı direksiyası tərəfindən verilir. Müsabiqədən uğurla keçmiş

layihələrin maliyyələşdirilməsinin həcmi və şərtləri, bir qayda olaraq, layihə rəhbərinə bildirilir. Müsabiqədən uğurla keçmiş layihələrin siyahısı Fondun internet səhifəsində yerləşdirilir və digər müvafiq elektron resurslarında və mətbu nəşrlərdə dərc olunur.

2.17. Müsabiqədən uğurla keçmiş layihələrin yerinə yetirilməsinə Fond tərəfindən qoyulan əsas şərtlər sırasına alimlər tərəfindən həmin layihə çərçivəsində əldə olunmuş elmi nəticələrin ictimaiyyətə çatdırılması və layihənin Fond tərəfindən dəstəklənməsi barədə məlumatın ("Bu iş Azərbaycan Elm Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir – Qrant №” redaksiyasında) verilməsi yolu ilə elmi nəticələrin çap olunması öhdəlikləri də daxildir.

2.18. Cari müsabiqədən keçməmiş, lakin nisbətən yüksək bal toplamış iştirakçılara həmin layihələri təkmilləşdirməklə növbəti müsabiqələrə yenidən təqdim etmələri tövsiyə olunur. Qiymətləndirilmə və ekspertlər barədə məlumatlar məxfi saxlanılmaqla, layihələrə verilən rəylərin (resenziyaların) məzmununun müvafiq hissəsi Fondun internet səhifəsində yerləşdirilə bilər.

## 3. Ərizələrin verilməsi və qeydiyyatı qaydaları

3.1. Ərizə (ərizənin titul vərəqi (Forma 1)) bilavasitə Fondun icraçı direksiyasına təqdim olunur.

3.2. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:
3.2.1. layihənin məzmunu və əsaslandırılması (Forma2);
3.2.2. layihə rəhbəri, hər bir icraçı və qurum haqqında məlumat (Forma 3);
3.2.3. layihənin xərclər smetası (Forma 4).

3.3. Bu Qaydalara uyğun olaraq ərizəyə əlavə edilən sənədlər üzrə formalar müvafiq müsabiqə növləri üzrə (fundamental, tətbiqi və axtarış-innovasiya xarakterli, pilot, məqsədli, xüsusi və s.) məzmununa görə fərqlənə bilər.

Ərizənin və bu Qaydalara uyğun olaraq ərizəyə əlavə edilən sənədlərin formaları Fond tərəfindən təsdiq edilir.

3.4. Bütün layihələr, bir qayda olaraq, Azərbaycan və ingilis (zəruri hallarda xarici ekspertlərdən rəy alınması üçün) dillərində tərtib edilməlidir. Kiçik həcmli qrantlar üzrə ərizə və sənədlər Azərbaycan-ingilis və ya Azərbaycan-rus dillərində doldurula bilər. Layihələr üç formatda (kağız üzərində, elektron məlumatdaşıyıcılarına yazılmış şəkildə və elektron variantın elektron ünvana göndərilə bilməsi üçün elektron fayllar şəklində) aşağıdakı üsullarla təqdim olunmalıdır:

3.4.1. Layihə rəhbəri tərəfindən imzalanmış ərizənin, bu Qaydalara uyğun olaraq ərizəyə əlavə olunan sənədlərin və digər müşayiətedici materialların A4 formatlı ağ kağızda iki nüsxədə çap olunmuş variantını və electron məlumatdaşıyıcılarına (CD, DVD və s.) yazılmış versiyasını birlikdə:

3.4.11. Fondun icraçı direksiyasının ünvanına (müsabiqə elanında göstərilmiş) (sifarişli üsulla) poçt vasitəsilə göndərmək yolu ilə;

3.4.1.2. və ya Fondun icraçı direksiyasının ofisindəki xüsusi poçt qutusuna həftənin iş günləri və saatlarında birbaşa çatdırmaqla və qeydiyyatdan keçirmək yolu ilə (elektron-poçt göndərişi zamanı mümkün itmələrdən və adi poçt daşınması zamanı təsadüfi mexaniki zədələrdən yayınmaq üçün);

3.4.2. layihə rəhbəri tərəfindən imzalanmış ərizənin, bu Qaydalara uyğun olaraq

ərizəyə əlavə olunan sənədlərin və digərmüşayiətedici materialların elektron variantını (Microsoft Word formatında elektron fayllarını) Fondun elektron-poçt ünvanına göndərmək yolu ilə.

3.5. Ərizənin, bu Qaydalara uyğun olaraq ərizəyə əlavə olunan sənədlərin və digər müşayiətedici materialların elektron variantının kağızda olan variantına tam uyğun olmasına məsuliyyəti layihə rəhbəri daşıyır.

3.6. Ərizə təqdim edildiyi gün qeydiyyatdan keçirilir. Hər bir təqdim olunmuş (göndərilmiş) ərizəyə müsabiqənin keçirilmə ilindən və nömrəsindən, ərizənin sıra nömrəsindən və elmi istiqamətlər üzrə təsnifat kodundan ibarət şifrə verilir və həmin şifrədən yalnız xidməti məqsədlər üçün istifadə olunur.

3.7. Yalnız müsabiqənin tələblərinə uyğun şəkildə, düzgün tərtib olunmuş və müəyyən edilmiş müddət (son qəbul tarixindən və saatından əvvəl) ərzində təqdim olunmuş ərizələr qeydiyyatdan keçirilir və layihələr ekspertizaya buraxılır. Müəyyən edilmiş müddətdən sonra müsabiqəyə təqdim olunmuş, tələb olunan qaydalara uyğun tərtib olunmamış ərizələr və bu Qaydalara uyğun olaraq ərizəyə əlavə olunan sənədlər müsabiqəyə buraxılmaq üçün qəbul olunmur, qeydiyyatdan keçirilmir və müsabiqədə iştirak etmək istəyən şəxsə bu haqda dərhal yerindəcə və ya müvafiq yolla (telefon, elektron-poçt vasitəsilə) məlumat verilir. Fondun icraçı direksiyasının ofisinə birbaşa çatdırılma halında aşkar olunan kiçik qüsurların aradan qaldırılaraq ərizənin yenidən son qəbul tarixindən və saatından əvvəl təqdim olunmasına bir dəfə şans verilir. Başqa şəhərlərdən sifarişli poçt vasitəsilə göndərilən ərizələrin daxilolma vaxtı poçt möhüründəki (ştempeldəki) göndərilmə tarixi ilə müəyyən olunur. Ən son qəbul günü və saatı daxil olmuş və texniki qüsurlara görə müsabiqəyə buraxılmaq üçün qəbul olunmayan ərizələrə görə Fond məsuliyyət daşımır.

3.8. Ərizələrin Fonda daxil olması və qeydiyyatı barədə məlumatlar müsabiqədə iştirak edən şəxslərə onların sorğusu əsasında (o cümlədən telefon və elektron-poçt vasitəsilə) verilə bilər.

3.9. Müsabiqəyə təqdim olunan materiallar geri qaytarılmır. Müsabiqədə iştirak etmək istəyən şəxslərə əsas materialların (məqalələr və s.) və zəruri sənədlərin əslinin deyil, surətlərinin təqdim edilməsi tövsiyə olunur.

## 4. Layihələrin ekspertizasının ümumi qaydaları

4.1. Ekspertizanın əsas məqsədi təqdim olunmuş layihələrin elmi səviyyəsinin və onların yerinə yetirilməsi imkanlarının və potensialının, gözlənilən elmi nəticələrinin və mümkün tətbiq ehtimalının qiymətləndirilməsindən, həmçinin maliyyələşdirilmənin məqsədəuyğunluğu və həcmi barədə Fondun icraçı direksiyası və Müşahidə Şurası üçün rəylərin, tövsiyələrin və arayışların hazırlanmasından ibarətdir.

4.2. Layihələrin ekspertizası qaydaları Fond tərəfindən müəyyən edilir.

Ekspertizanın həyata keçirilməsi məqsədilə Fond Nizamnaməsinə uyğun olaraq elmin müxtəlif sahələri üzrə yerli və digər ölkələrin alimləri sırasından ekspertlər seçir və Fondun nəzdində müvəqqəti və (və ya) daimi ekspert qrupları yaradır.

4.3. Fonda cari müsabiqədə iştirak üçün təqdim olunmuş layihələrin idarə olunması Fondun icraçı direksiyası, Müşahidə Şurası və ekspertlər (ekspertlər qrupu) tərəfindən üç

mərhələdə həyata keçirilir.

4.4. Birinci mərhələdə müsabiqəyə təqdim olunmuş layihələrin texniki ekspertizası keçirilir. Bu mərhələdə, bir qayda olaraq ərizələrin qəbulu təşkil olunur, layihələrin tərtib olunmasının müsabiqənin şərtlərinə cavab verməsi yoxlanılır, onların qeydiyyatı və kodlaşdırılması aparılır. Eyni zamanda layihələrin Azərbaycan Respublikasında müvafiq elm sahələrinin prioritet istiqamətlərinə uyğunluq dərəcəsi müəyyən olunur, elmi istiqamətlər üzrə qruplaşdırılma aparılır və növbəti mərhələyə keçməsi barədə müvafiq qeydlər olunur və iddiaçıya bu haqda məlumat verilir.

4.5. İkinci mərhələdə texniki ekspertizadan keçmiş layihələrin elmi ekspertizası işi təşkil olunur. Layihələr xüsusi kodlaşdırılaraq ekspertlərə verilir. Bu zaman ekspertlərə yalnız layihənin məzmunu və müvafiq materiallar təqdim edilərək, layihənin rəhbəri, iştirakçılar və ya layihəni təqdim etmiş qurum haqqında hər hansı məlumat verilmir. Eyni zamanda ekspertlərin adları kodlaşdırılır.

Ekspertlərin (ekspert qruplarının) təyini, təşkili və say tərkibi haqqında qərar Fondun Müşahidə Şurasının tövsiyələri nəzərə alınmaqla Fondun icraçı direksiyası tərəfindən qəbul edilir. Bir qayda olaraq, müsabiqəyə buraxılmış fundamental və tətbiqi xarakterli layihələr məxfiliyi təmin edilməklə ayrı-ayrılıqda azı üç ekspertə, pilot, axtarış-innovasiya yönlü, məqsədli və xüsusi layihələr isə müsabiqənin növündən asılı olaraq, üçdən çox və ya üçdən az sayda ekspertə göndərilir. Layihələr ekspertlər (ekspertlər qrupu) tərəfindən Fondun təsdiq etdiyi ekspertiza qaydalarına uyğun olaraq xüsusi sistem ilə qiymətləndirilir, rəy, tövsiyələr və ümumiləşmiş arayışla birlikdə Fondun icraçı direksiyasına təqdim edilir.

Fond şəffaflığı təmin etmək məqsədilə və təqdim olunmuş və texniki ekspertizadan keçmiş layihələrin müvafiq qaydada açıqlana biləcək hissəsinin Internet səhifəsi vasitəsilə forum xarakterli ictimai-elmi müzakirəsini və ekspert rəylərinin müvafiq hissəsinin Internet səhifədə yerləşdirilməsi işini təşkil edə bilər. Bu tipli müzakirə təqdim olunmuş layihə texniki ekspertizadan keçdikdən sonra başlana və elmi ekspertiza bitənədək olan müddət ərzində həyata keçirilə bilər. Belə müzakirələrin nəticələri analiz olunduqdan sonra sahə üzrə ekspert tərəfindən müvafiq rəyin hazırlanmasında istifadə oluna bilər. Bu zaman açıq müzakirəyə təqdim olunmuş layihələrin müvafiq qaydada açıqlanan hissəsi üzrə müəlliflik hüquqları müvafiq qanunvericiliyə uyğun olaraq qorunur.

4.6. Üçüncü mərhələdə ekspertlərin (ekspert qruplarının) layihələrin dəstəklənməsi və maliyyələşdirilmə həcmi barədə hazırladığı yekun rəylər, tövsiyələr və arayışlar (müsabiqədə iştirak üçün bu Qaydalara uyğun olaraq qeydiyyatdan keçirilmiş ərizələr və ərizələrə əlavə olunan sənədlərlə birgə) Fond tərəfindən Nizamnaməsinə və bu Qaydalara uyğun olaraq layihələrin seçilməsi barədə qərarın qəbul olunması məqsədilə müzakirə edilir. Müştərək layihələrin qismən maliyyələşdirilməsi konkret layihənin şərtləri nəzərə alınmaqla həyata keçirilir.

4.7. Qrantların verilməsi haqqında qərar Fond tərəfindən Fondun Müşahidə Şurasılə razılaşdırılmaqla qəbul edilir .

4.8. Layihələrin maliyyə məzmunu və ekspertlərə dair məlumatlar məxfi saxlanılır. Fondun icraçı direksiyasının əməkdaşları, Müşahidə Şurasının üzvləri və ekspertlər belə məlumatları açıqlamamalıdırlar.

4.9. Ekspertlərin və ekspert qrupu üzvlərinin əməyi Fond tərəfindən müəyyən

edilmiş layihələrin ekspertizası qaydalarına uyğun olaraq ödənilir.

## 5. Layihələrin həyata keçirilməsi şərtləri

5.1. Müsabiqədən keçmiş layihələrin maliyyələşdirilməsi həmin layihələrin iddiaçılarına (fiziki şəxslər, müvəqqəti elmi yaradıcı kollektivlər və qurumlar) Fond tərəfindən onun dövlət büdcəsindən formalaşmış mənbələri hesabına göstərilən maliyyə dəstəyi vasitəsilə həyata keçirilir (Fonda yazılı şəkildə məlumat verildiyi və qarşılıqlı razılaşma əldə edildiyi təqdirdə, paralel olaraq başqa maliyyə mənbələrinin cəlbi istisna edilmir).

5.2. Müsabiqədən keçmiş layihələrin yerinə yetirilməsi və maliyyələşdirilməsi məqsədilə Fond ilə layihənin rəhbəri arasında layihənin həyata keçirilməsi ilə bağlı tərəflərin qarşılıqlı məsuliyyət və vəzifələrini müəyyən edən müqavilə bağlanılır.

5.3. Fondun icraçı direksiyası yerinə yetirilməkdə olan layihələr üzrə aralıq hesabatlar (yarımillik) tələb etmək, mütəmadi olaraq və ya zərurət yarandığı hallarda layihənin texniki, elmi və maliyyə monitorinqini təşkil etmək və keçirmək hüququna malikdir.

5.4. Yerinə yetirilmiş layihələr üzrə əsas (son) hesabat layihə rəhbəri tərəfindən Fondun icraçı direksiyasına baxılmaq üçün təqdim olunur. Fondun icraçı direksiyası layihə üzrə son hesabatı qiymətləndirilmək məqsədilə ekspertlərə (ekspertlər qrupuna) göndərir və ekspert rəyləri ilə birlikdə müvafiq qərarın qəbul edilməsi üçün Fondun Müşahidə Şurasına təqdim edir.

5.5. Fond ilə layihənin rəhbəri arasında bağlanmış müqavilədə layihənin dəyəri, hesablaşma qaydası, layihənin həyata keçirilmə müddəti, aralıq və əsas hesabatların təqdim edilmə müddəti, maliyyə, elmi və texniki monitorinq qaydaları, əsas gözlənilən nəticələr, tərəflərin həyata keçirilən layihə çərçivəsində yaranmış əqli mülkiyyət hüquqları, başa çatdırılmış layihənin və onun ayrı-ayrı mərhələlərinin qəbul olunma müddəti və qaydaları və digər zəruri müddəalar nəzərdə tutulmalıdır. Layihənin növündən asılı olaraq, maliyyələşdirilmə birdəfəlik və ya mərhələli şəkildə (rüblər üzrə) həyata keçirilə bilər. Maliyyələşdirilmədə (mərhələlər nəzərə almaqla) nəzərdə tutulan məbləğ bir qayda olaraq, layihə rəhbərinin bank hesabına köçürülür. Fondun icraçı direksiyası son maliyyələşdirmə məbləği üzrə ödəmələri son hesabat verildikdən və yalnız bu hesabat qəbul edildikdən sonra həyata keçirə bilər.

5.6. Qismən maliyyələşdirilən müştərək layihələrin maliyyələşmə qaydaları konkret müsabiqələrin şərtlərinə uyğun olaraq müəyyən edilir.

5.7. Hər hansı bir alimin (alimlər qrupunun) elmi əsərinin (monoqrafiyasının, atlasının, elmi və ya analitik icmalının və s.) nəşri üçün maliyyə dəstəyi qanunvericiliyə uyğun olaraq Fond və nəşriyyat arasında müqavilə bağlanılması, maliyyələşdirilmədə nəzərdə tutulan məbləğin bu nəşriyyatın hesabına birbaşa köçürülməsi və bu işin icrasının monitorinqi yolu ilə həyata keçirilir.

5.8. Elmi-tədqiqatların müasir tələblərə cavab verən maddi-texniki təminatı (pilot və ya xüsusi proqramlar çərçivəsində) ilə bağlı maliyyə dəstəyi layihənin həyata keçirilməsinə dair müqavilənin və qanunvericiliyin tələblərinə uyğun əlavə müqavilənin bağlanılması yolu ilə həyata keçirilir. Əlavə müqaviləyə əsasən layihə çərçivəsində təkliflər əsasında əldə ediləcək avadanlıq, cihaz və qurğuların alınması üçün Fond layihədə nəzərdə

tutulmuş və müsabiqənin nəticəsinə uyğun maliyyə vəsaitini birbaşa müvafiq yerli və ya xarici hüquqi və ya fiziki şəxslərin hesabına köçürür və həmin avadanlıq, cihaz və qurğuların alınaraq qrant alanlara çatdırılması prosesinə nəzarət edir.

5.9. Layihədə müsabiqədən keçmiş layihə çərçivəsində əldə ediləcək və ekspert rəyi əsasında insan sağlamlığına zərər vura biləcək və ya təhlükəli sayılan avadanlıq, cihaz və qurğularla, maddə və nümunələrlə işləyəcək şəxslərin layihənin icrası müddəti ərzində müvafiq sığortası nəzərdə tutula bilər.

5.10. Alimlərin xaricdə keçirilən beynəlxalq və regional elmi tədbirlərdə iştirakı, müsabiqədən keçdiyi təqdirdə, bu iştirakın əsaslandırılması haqqında əlavə sənədlərin (dəvətnamənin əsli, plenar, dəvətli icmal məruzənin və ya şifahi məruzənin olmasını təsdiq edən sənəd, tədbirin ilkin proqramı, qismən digər maliyyə dəstəyi göstərilməsini nəzərdə tutan sənəd və s.) təqdimindən sonra müqavilənin bağlanması yolu ilə həyata keçirilir.

5.11. Layihə cərcivəsində işçilərin ezamiyyətə göndərilməsi həmin layihənin rəhbəri tərəfindən müəyyən edilir və müvafiq müqavilədə oz əksini tapır.

5.12. İşçilərin ezamiyyət müddəti 5 gündən yuxarı ola bilməz (gediş və gəliş tarixləri daxil olmaqla).

5.13. İşçi ezamiyyətdən qayıtdıqdan sonra ezamiyyət ilə əlaqədar elmi hesabat və xərclədiyi vəsaitlərin məbləği haqqında hesabatını 5 gün ərzində təqdim etməlidir.

5.14. Nəqliyyat vasitələrinin yola düşdüyü gün ezamiyyətə gedən gün, nəqliyyat vasitəsinin daimi iş yeri yerləşən yaşayış məntəqəsinə gəldiyi gün isə ezamiyyətdən qayıdan gün sayılır. Bu müddət 5 gündən çox olmamalıdır. Nəqliyyat vasitəsi saat 24-ə kimi (saat 24 də daxil olmaqla) yola düşərsə, ezamiyyətə gedən gün cari gün, 00-saatdan sonra isə sonrakı günlər sayılır. Əgər nəqliyyat vasitəsinin yola düşdüyü yer yaşayış məntəqəsindən kənarda yerləşərsə, həmin yerə getmək üçün lazım olan vaxt nəzərə alınır. İşçinin daimi iş yerinə qayıtması günü eyni qayda ilə təyin edilir.

5.15. Azərbaycan Respublikasında elmi tədbirlərin (konfrans, simpozium, seminar və s.) təşkili və keçirilməsi üçün lazım olan maliyyə dəstəyinin göstərilməsi Fond ilə tədbirin baş tutacağı baza təşkilatı (konfrans mərkəzləri, hotellər, agentliklər, şirkətlər və s.) arasında qanunvericiliyə uyğun olaraq müqavilənin bağlanılması yolu ilə həyata keçirilir.

5.1. Qısamüddətli təcrübəkeçmə proqramında iştirakın təşkili və həyata keçirilməsi üçün lazım olan maliyyə dəstəyinin göstərilməsi layihənin həyata keçirilməsinə dair müqavilənin və qanunvericiliyin tələblərinə uyğun olaraq Fond ilə təcrübəkeçmə proqramının baş tutacağı təşkilat arasında əlavə müqavilənin bağlanılması, maliyyələşdirilmədə nəzərdə tutulan məbləğin bu təşkilatın hesabına birbaşa köçürülməsi və bu işin icrasının Fond tərəfindən monitorinqi yolu ilə həyata keçirilir.

5.2. Layihənin maliyyələşdirilməsi aralıq elmi və maliyyə hesabatlarına, monitorinqlərin nəticələrinə, həmçinin Fondun ekspertlərinin və ya müvafiq ekspertlər qrupunun əsaslandırılmış rəy və tövsiyələrinə istinad edilməklə və Fondun Müşahidə Şurasının müvafiq rəyi əsasında Fond tərəfindən vaxtından əvvəl dayandırıla bilər.

5.3. Layihənin rəhbəri və ya hər hansı bir icraçısı yaranmış vəziyyətlə əlaqədar (uzunmüddətli ezamiyyət, xəstəlik və s.) layihənin yerinə yetirilməsi üzrə öz vəzifələrini

icra edə bilmədikdə, Fond monitorinq hesabatı əsasında layihə rəhbərinin digər şəxslə (yalnız mövcud icraçılar sırasından) əvəz edilməsi,icraçının isə layihədən kənarlaşdırılması barədə qərar qəbul edə bilər.

## 6. Müsabiqələrin xüsusiyyətləri

6.1. Müsabiqəyə təqdim olunan, elmi tədbirlərdə iştirak üçün nəzərdə tutulmuş müsabiqələr istisna olunmaqla, bu Qaydaların 1.4-cü bəndində nəzərdə tutulmuş layihələr Fond tərəfindən müəyyən olunmuş müddət ərzində (son qəbul günü və saatından əvvəl) qəbul olunur.

6.2. Alimlərin xaricdə keçirilən nüfuzlu elmi tədbirlərdə iştirakı ilə əlaqədar ərizələri hər dörd aydan bir aşağıdakı müddətlərdə qəbul olunur:

6.2.1. müvafiq ilin yanvar-aprel aylarında keçiriləcək tədbirlərdə iştirak üçün sənədlərin qəbulunun son tarixi - həmin ildən əvvəlki ilin 30 noyabr tarixi;

6.2.2. müvafiq ilin may-avqust aylarında keçiriləcək tədbirlərdə iştirak üçün sənədlərin qəbulunun son tarixi - həmin ilin 30 mart tarixi;

6.2.3. müvafiq ilin sentyabr-dekabr aylarında keçiriləcək tədbirlərdə iştirak üçün sənədlərin qəbulunun son tarixi - həmin ilin 30 iyul tarixi.

6.3. Təqdim olunan materialların forma və siyahısı konkret müsabiqəyə uyğun olaraq müəyyən edilir. Elmi tədbirlərdə iştirakla bağlı müsabiqələrdə iştirak üçün təqdim olunmuş layihələrin sırasında bu tədbirlərin plenar iclaslarının məruzəçilərinə, xüsusi olaraq dəvət olunmuş icmal məruzəçilərinə, həmçinin şifahi məruzəçilərə mütləq üstünlük verilir.

6.4. Müsabiqədə iştirak üçün, bir qayda olaraq, yaş məhdudiyyəti qoyulmur. Azərbaycan Respublikasının vətəndaşı olan və onun ərazisində yaşayan, işləyən və ya təhsil alan, yüksək elmi nailiyyətlər əldə etmiş və yaşı otuz beşi keçməmiş elmi işçilər, mütəxəssislər, doktorantlar və magistr tələbələr arasında gənc alimlər üçün Fond tərəfindən xüsusi müsabiqə keçirilə bilər.

6.5. Xarici qurumların iştirakı ilə keçirilən müştərək layihələrin müsabiqəsi çərçivəsində aparılan elmi-tədqiqatlar Fondla bağlanılmış müqavilə əsasında həyata keçirilir və bu zaman hər bir iştirakçı tərəf layihənin ona aid hissəsini və iştirakçılarını maliyyələşdirir. Xarici qurumlarla müştərək layihələr digər tərəfin maliyyə və maddi- texniki təminatını vəd edən yazılı zəmanət (qarantiya) məktubu təqdim olunduqdan sonra qeydə alına bilər.

6.6. Azərbaycan Respublikasının ərazisində Fond və yerli dövlət və qeyri-dövlət qurumlarının iştirakı ilə müştərək layihələr müsabiqəsi çərçivəsində aparılan elmi-tədqiqatlar tərəflər arasında bağlanmış müqavilə yolu ilə həyata keçirilir və hər bir iştirakçı tərəf layihənin ona aid hissəsini və iştirakçılarını maliyyələşdirir. Bu zaman digər tərəfin maliyyə və maddi- texniki təminatını vəd edən yazılı zəmanət (qarantiya) məktubu tələb olunur.

6.7. Alimlərin (alimlər qrupunun) prioritet elmi sahələr üzrə xüsusilə dəyərli elmi əsərlərinin (monoqrafiyalarının, atlaslarının, sifarişli icmallarının və s.) nəşri üçün nəzərdə tutulan xüsusi müsabiqəyə Azərbaycan alimlərinin layihələri təqdim edilə bilər. Digər ölkələrin alimləri ilə müştərək müəlliflik hüququna malik elmi əsərlər də müsabiqəyə

təqdim oluna bilər. Hər iki halda müsabiqəyə təqdim olunan nəşrlərin Azərbaycan Respublikasında elmin inkişafı üçün faydalı olması lazımi şəkildə əsaslandırılmalıdır. İlk növbədə xaricdə elmi ictimaiyyət tərəfindən qəbul olunmuş nüfuzlu nəşriyyatlarda çap olunması nəzərdə tutulmuş nəşr layihələrinə üstünlük verilir. Bu zaman müsabiqə üzrə konkret layihənin icrasının nəticəsi olmayan elmi əsərin nəşri də Fond tərəfindən maliyyələşdirilə bilər. Eyni müəllifə və ya müəlliflər qrupuna üç ildə yalnız bir dəfə maliyyə dəstəyi göstərilə bilər. Elmi əsərin Fond tərəfindən yenidən (təkrar) nəşri maliyyələşdirilmir. Başqa mənbələr hesabına elmi əsərin təkrar nəşri üçün Fondun yazılı razılığı alınmalıdır. Layihənin büdcəsində çap məhsulunun səhifə və tirajının sayı göstərilməlidir. Nəşrin üz qabığında Fondun tam adı yerləşdirilməli, daxilində isə Fondun loqosu və qrant yolu ilə maliyyə dəstəyi göstərməsi haqqında informasiya ("Bu monoqrafiya (atlas, icmal və s.) Azərbaycan Elm Fondunun maliyyə yardımı ilə nəşr edilmişdir - Qrant №" redaksiyasında) verilməlidir. Qrant maliyyələşdirilməsi yolu ilə nəşr olunmuş çap məhsullarının satılmasına icazə verilmir. Çap məhsulundan on nüsxə Fonda təqdim olunur. Qalan nüsxələrin istifadəsi və yayılması haqqında Fonda yazılı məlumat verilir.

6.8. Müsabiqəyə təqdim olunmuş və Azərbaycan Respublikasında keçirilməsi nəzərdə tutulmuş respublika, regional və beynəlxalq səviyyəli elmi tədbirlərin təşkilinə dair konkret layihələr onların proqramında Azərbaycan Respublikası üçün əhəmiyyətli olan prioritet elmi istiqamətlər geniş şəkildə təmsil olunduğu halda dəstəklənə bilər. Konfrans, simpozium, seminar, dəyirmi masa və bu tipli digər tədbirlərin ilkin proqramı və gündəliyi, iştirakçıların sayı və təxmini siyahısı, o cümlədən tədbirlərin gözlənilən nəticələrini əks etdirən sənəd layihəyə əlavə edilməlidir. Bu cür tədbirlərin nəşr olunan materiallarının üz qabığında Fondun tam adı yerləşdirilməli, daxilində isə Fondun loqosu və qrant yolu ilə maliyyə dəstəyi göstərməsi haqqında informasiya ("Azərbaycan Elm Fondunun maliyyə yardımı ilə nəşr edilmişdir - Qrant №" redaksiyasında) verilməlidir.

6.9. Fond eyni zamanda konkret layihənin yalnız bir icraçısının xaricdə keçirilən eyni bir elmi tədbirdə iştirakını maliyyələşdirir. Fond layihənin həyata keçirildiyi müddət ərzində iştirakçı alimlərin bir neçə beynəlxalq elmi tədbirlərdə iştirakını təmin edə bilər. Bu zaman tədbirlərə ayrılan ümumi məbləğ layihənin xərclər smetasında bu məqsəd üçün nəzərdə tutulmuş məbləği keçməməlidir.

6.10. Elmi-tədqiqatların maddi-texniki bazalarının müasir səviyyədə yenilənməsini nəzərdə tutan, eyni zamanda kollektiv istifadə oluna biləcək müasir elmi avadanlıqlar mərkəzlərinin yaradılmasına yönəldilən layihələr bu Qaydalara uyğun olaraq maliyyələşdirilə bilər. Bu cür maliyyə dəstəyi eyni tədqiqat qrupuna üç ildə bir dəfə göstərilə bilər.

6.11. Fond təsisçisi olduğu və ya olmadığı elmi və elmi-kütləvi jurnalların dəstəklənməsinə bu Qaydalara uyğun olaraq qrant verə bilər.

## 7. Əlavə müddəalar

7.1. Ərizənin və bu Qaydalara uyğun olaraq ərizəyə əlavə olunan sənədlərin düzgün doldurulması prosesini asanlaşdırmaq və effektivliyini artırmaq məqsədilə ərizələrin qəbulu üçün nəzərdə tutulmuş dövr ərzində Fond tərəfindən məsləhət saatları və seminarları təşkil edilə bilər.

7.2. Ərizələrin və bu Qaydalara uyğun olaraq ərizəyə əlavə edilən sənədlərin

formaları Fondun internet saytında yerləşdirilir.